# 19-cu Bakı Yapon Dili Natiqlik Müsabiqəsi

## Tədbir haqqında məlumat

2020-ci il 21 noyabr tarixində 19-cu Bakı Yapon Dili Natiqlik Müsabiqəsi keçirilmişdir.

Yeni koronavirusun yayılması səbəbindən bu il yarışma internet üzərindən online şəkildə baş tutmuşdur. Virusun geniş yayıldığı və eyni zamanda hərbi toqquşmanın baş verdiyi çətin məqama təsadüf etməsinə rəğmən toplam 20 nəfər natiq yarışmada iştirak etmiş, gözəl hazırlıqlarının nəticəsi olaraq yüksək səviyyəli nitqlərlə çıxış etmişlər. Yarışmada münsiflər heyətinin sədri qismində Bakı Yaponlar Cəmiyyətinin sədri Vatanabe Akihisa, digər münsiflər qismində isə Bakı Yaponları Cəmiyyətinin üzvləri Kamiiva Şiniçi, Ohata Kimino, Yaponiya Səfirliyinin müşaviri Yamanaka Keisuke və əməkdaşı Şiraişi Satomi iştirak etmişlər. Eyni zamanda, səfir Vada Cüniçi də münsiflər heyətinin fəxri üzvü qismində tədbiri izləmişdir.

### 1. “ÜMUMİ” KATEQORİYA

“Ümumi” kateqoriya üzrə toplam 9 nəfər iştirak edərək, Yaponiya-Azərbaycan münasibətləri, Yaponiyada yaz fəsli, yemək mədəniyyəti, gələcək arzular, karantin zamanı həyat, sözün gücü və s. kimi fərqli mövzularda çıxışlar təqdim etmişdir.

【Çıxışlar haqqında ümumi videoya **buradan** nəzər sala bilərsiniz.】

### Münsiflər heyətinin sədri cənab Vatanabe Akihisanın “Ümumi” kateqoriya üzrə iştirakçıların çıxışları haqqında rəyi və iştirakçılara müraciəti

*Əziz iştirakçılar, hər birinizə təşəkkür edirəm.*

*Ötən illərki Yapon Dili Natiqlik Müsabiqələrindən fərqli olaraq bu il kompüter və ya telefon ekranlarına baxaraq iştirak etməyin bir qədər çətin olduğunu düşünürəm. Buna rəğmən, sizlərin indiyədək nə cür həvəslə yapon dili öyrəndiyinizi uzaqdan da olsa hiss etmək mümkün oldu.*

*Sizlərin məktəb və ya universitetə gedə bilməmək, müəllimlər və ya dostlarla görüşə bilməmək, online dərslər və s. kimi qeyri-adi və çətin şəraitdə gündəlik olaraq dərslərinizə davam edərək var gücünüz*

*ilə çalışdığınızı düşünürəm. Məhz ruh düşkünlüyü yaşana biləcək bir dövr olduğu üçün xoş və səmimi sözlərin gücündən istifadə edərək çıxışlar etməyiniz məndə çox gözəl təəssüratlar yaratdı.*

*Sizin yapon dili öyrənməklə birgə, eyni zamanda Yaponiyanın fəsilləri, mədəniyyətinə böyük maraq göstərməyiniz məni çox şad etdi. Məsələn, sayənizdə sakura çiçəklərini izləmək mərasiminin tarixi haqqında bilmədiyim məlumatlara yiyilənmiş oldum.*

*Sevimli yeməkləriniz, sevimli gəlinciyiniz və ya pişiyiniz haqqında, eyni zamanda uşaqlıqdan bəri arzularınıza doğru necə çalışmağınız haqqında maraqlı və səmimi əhvalatlar məni də çox həvəsləndirdi və mən də sizlərə dəstək olmaq hissi keçirdim.*

*Bundan sonra da sizlərin düşüncələri, maraqlarınız haqqında dinləmək istərdim. Bu cür əhvalatları yapon dilində çatdırmağı bacaran insanlar artdıqca gələcəkdə mütləq Yaponiya ilə Azərbaycan arasında körpü rolunu oynayacaqlarına inanıram.*

## 2. “TƏLƏBƏ” KATEQORİYASI

“Tələbə” kateqoriyası üzrə 11 nəfər iştirak etmiş, “Mənim təklif etmək istədiyim məsələ” mövzusu ətrafında ətraf mühit problemləri, beynəlxalq münasibətlər, sosial media, sosial rifah, incəsənət və digər məsələlərlə bağlı çıxışlar etmişlər.

### Münsiflər heyətinin sədri cənab Vatanabe Akihisanın “Tələbə” kateqoriyası üzrə iştirakçıların çıxışları haqqında rəyi və iştirakçılara müraciəti

*Əziz iştirakçılar, ilk növbədə sizlərə təşəkkürümü bildirirəm.*

*Online şəkildə iştirak etdiyiniz ilk yapon dili natiqlik müsabiqəsi olsa da, bu gün üçün hazırlıq və məşqlərinizin bəhrəsi, tədbir zamanı keçirdiyiniz həyəcan duyğunuzu ekrandan da hiss edə bildim.*

*Bu il çıxışlar üçün “Təklif etmək istədiyim məsələ” mövzusu təyin olunduğu üçün yarışma sadəcə yapon dili bacarıqlarının nümayişi ilə deyil, sizləri düşündürən məsələlər və ya problemlər, onlarla bağlı düşündüyünüz həll və ya təkmilləşdirmə üsulları haqqında irəli sürüldüyüz təkliflərlə də yadda qalmışdır. Odur ki. çox faydalı bir yarışma olduğunu düşünürəm.*

*2020-ci il keçmişdə nümunəsi olmayan fərqli bir il olmuşdur. Dünyada tüğyan edən koronavirusun*

*təsiri Azərbaycandan da yan keçməmiş, sizlər üçün də virusun yayılmasının qarşısının alınması tədbirləri ilə əlaqədar universitetə getməyin mümkün olmadığı vəziyyət davam etməkdədir. Bu il həm də azərbaycanlılar üçün Qarabağın işğal atında olan ərazilərinin azad olunması ilə yadda qalan, tarixi məqamın yer aldığı sevincli bir il olmuşdur. Bu kimi gündəmdə yer alan məsələlər bir çox iştirakçıların inşa mövzularında öz əksini tapsa da, hadisələrə yanaşma tərzi fərqli olmuş və nəticədə "öz və yaxınlarının qarşılaşdığı çətinliklər", "Sağlamlıq problemi", "İnsan hüquqları problemi"və ya "Gələcək inkişaf" kimi fərqli baxış bucaqlarından olan çıxışları dinləmək mümkün olmuşdur.*

*Bundan əlavə, tələbələrin "yemək mədəniyyəti", "su resursları problemləri", "nüvə qüvvəsi problemi" kimi uzun illərdir dünyada mükazirələri gedən məsələlər, eyni zamanda "əlillər üçün infrastruktur", "təhsil sistemi" kimi Azərbaycanda baş verən məsələlər, bundan sonra həyatımıza daha da daxil olmağa davam edəcək "sosial media" və s. kimi müxtəlif mövzulara maraqları olmasına çox heyran qaldım.*

*Zənnimcə, Bu yarışmada 1-ci yerin sahibi olmuş Fənarə Alıyevanın çıxışı dünyanın qarşılaşdığı su qıtlığı, suyun keyfiyyəti ilə bağlı problemlər kimi böyük məsələlərə toxunaraq, azad olunmuş Qarabağın torpaqlarından suyun təminatının yenidən bərpa olunması kimi özünün dərindən hiss etdiyi məqamı da misal göstərməsi ilə dinləyicilərin diqqətini cəlb edə, qəlblərində qala bilmişdir.*

*Bütün digər yer qazanan şəxslərin uğurlu çıxışlarında nəzər yetirdiyim bənzər məqam isə toxunduqları problemlərin həlli yolları ilə bağlı fikirlərini punktlara bölərək dinləyicilərə aydın və dəqiq şəkildə çatdırmaqları olduğunu düşünürəm.*

*Nitq yalnız dinləyiciyə də tam şəkildə çatdırıldığı təqdirdə tam hesab oluna bilər. Növbəti illərdə də yapon dili natiqlik müsabiqələrində iştirak edəcək şəxslərdən ilk növbədə inşa mətnini əzbərləyərək dəfələrlə məşq etməklərini və bununla da "dinləyicilərə istədikləri mesajı çatdırmaq" fikrini əsas tutaraq gözəl nitq söyləməyə nail olmaqlarını istərdim.*

*Hal-hazırda sizlərin yapon dili danışıq qabiliyyətlərinizdə böyük fərq olmadığını düşünürəm. Bu dəfəki iştirakınızdan həvəslənərək bundan sonra da daim öz fikirlərinizi, təkliflərinizi irəli sürməkdən çəkinməyin! Düşüncələrinizi yapon dilində ifadə etmək üçün səhv etməkdən çəkinmədən, utanmaq hissini unudaraq əzmlə çalışmağa davam edin.*

*Sizlərin gələcək uğurlarınıza mən də çox sevinərəm!*

## 3. “Tələbə” kateqosiyası üzrə nəticələr və diplomların təqdim olunması mərasimi

Qalib iştirakçı və digər yer qazanan iştirakçıların siyahısına aşağıdakı cədvəldən nəzər sala bilərsiniz.

Fürsətdən istifadə edərək, bir daha sizləri uğurunuz münasibətilə təbrik edirik. Qeyd etmək istərdik ki, qalib iştirakçı Fənarə Alıyeva 2021-ci il yanvar ayının sonlarında Moskvada keçirilməsi planlaşdırılan “2021-ci il Avrasiya Tələbələri Yapon Dili Yarışmasında” iştirak etmək hüququ qazanmışdır.

| Qazandığı yer | İştirakçının adı | Universitet | İxtisas | Mövzu |
|---|---|---|---|---|
| **1-ci yer** | Fənarə Əliyeva | Bakı Dövlət Universiteti | Regionşünaslıq, Yaponiya üzrə | *“İçməli su problemi”* |
| **2-ci yer** | Nigar Usubova | Azərbaycan Dövlət Neft və Sənayə Universiteti | Neft-qaz mühəndisliyi | *“Nüvə qüvvəsi”* |
| **3-cü yer** | Həmidə Həmidova | Azərbaycan Dillər Universiteti | Xarici Dil müəllimliyi | *“Azərbaycan təhsil sistemindəki problemlərin həlli”* |
| **4-cü yer** | Nailə İsmayılova | Azərbaycan Dillər Universiteti | Fransız Dili müəllimliyi | *“Sosial media: düşmən yoxsa dost?”* |
| **5-ci yer** | Fatimə Dadaşova | Bakı Dövlət Universiteti | Regionşünaslıq, Yaponiya üzrə | *“Səhiyyə problemi”* |
| **Münsiflərin Xüsusi Mükafatı** | Nəzrin Cuvarlinskaya | Bakı Dövlət Universiteti | Regionşünaslıq, Yaponiya üzrə | *“Müharibə insanlara necə təsir edir”* |

## Mükafatlandırma Mərasimi



1-ci yer: Fənarə Əliyeva



2-ci yer: Nigar Usubova



3-cü yer: Həmidə Həmidova



4-cü yer: Nailə ismayılova



5-ci yer: Fatimə Dadaşova



Münsiflərin Xüsusi Mükafatı:
Nəzrin Cuvarlinskaya



Səfir və iştirakçıların kollektiv şəkli

## Tədbirin dəstəkçiləri

Tədbirin keçirilməsində dəstək olmuş şirkətlər tərəfindən qalib iştirakçı və digər yer sahiblərinə, eyni zamanda yer qazanmayan bütün iştirakçılara hədiyyələr təqdim olunmuşdur.

**Tədbirdə dəstəkçi qismində çıxış etmiş şirkətləri sizə təqdim edirik!**

ITOCHU

arigatto Osaka Japan

Toyota Bakı Mərkəzi

INPEX 国際石油開発帝石株式会社

TEC 株式会社TECインターナショナル TEC International Co. Ltd.




**Bütün iştirakçılara təqdim olunan hədiyyələr**




**1-ci yerin sahibi və digər qaliblərə verilən hədiyyələr**